DÜNYA XƏBƏRLƏRİ

# Rusiya Kiyevin üç körpüsünü raketlə vurub

Noyabr 20, 2026




Rusiyanın Kiyevə zərbələrindən sonra zədələnmiş körpüdən çətirlərlə keçən insanlar.

Rusiya Kiyevdə Dnepr çayı üzərindəki üç körpünü ballistik raketlərlə vurub, üç nəfər həlak olub. Bu, müharibə başlayandan bəri Ukrayna paytaxtının sol və sağ sahillərini birləşdirən yollara edilən ən genişmiqyaslı hücumdur.

Kiyev meri **Vitali Kliçko**nun sözlərinə görə, təxminən 3 milyon əhalisi olan şəhərdə nəqliyyatın hərəkəti dayandırılıb və ya məhdudlaşdırılıb. Paytaxt sakinləri çayın iki sahili arasında hərəkət etmək üçün altı körpüdən yararlanırlar.

Mer hücum zamanı təxminən 15 nəfərin yaralandığını açıqlayıb.

Ukrayna bu həftə Rusiya ilə Krımı birləşdirən körpünü üçüncü dəfə vurduqdan sonra Rusiya prezidenti Vladimir Putin buna sərt cavab veriləcəyini bildirmişdi.

"Reuters" agentliyi bu gün – noyabrın 20-də səhər saatlarında Kiyevdə bir sıra partlayış səslərinin eşidildiyini xəbər verir.

Dnepropetrovsk vilayətində dronların yaşayış binalarına zərbələri nəticəsində beş nəfər yaralanıb. Ukraynanın ikinci ən böyük şəhəri Xarkovda isə xəstəxanaya dron hücumu dörd nəfərin xəsarət almasına səbəb olub.

Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsi artıq beşinci ildir davam edir. Tərəflər mülki şəxsləri qəsdən hədəfə almadıqlarını bəyan edirlər.

## Rusiyanın Ukraynaya hücumlarında azı 8 nəfər ölüb

Noyabrın 20-nə keçən gecə Rusiyanın Kiyevə və Ukraynanın digər bölgələrinə dron və ballistik raketlərlə birgə hücumu nəticəsində azı 8 nəfər həlak olub, 28 nəfər yaralanıb.

DTEK enerji şirkətinin məlumatına əsasən, hücumdan sonra Kiyevin bir sıra hissələri işıqsız qalıb. Paytaxtın müxtəlif ərazilərində elektrik enerjisinin verilişi kəsilib.

Rusiya Müdafiə Nazirliyi zərbələr endirdiyini təsdiqləyib. Nazirlik Ukraynanın hərbi-sənaye obyektlərini, raket və dronların istehsal və saxlanma yerlərini, eləcə də Kiyev və daha altı vilayətdəki enerji və nəqliyyat infrastrukturunu hədəfə aldığını bildirib.

## Luqanska zərbələr: üç nəfərin öldüyü bildirilir

Luqanskda isə Ukraynanın hücumu nəticəsində üç nəfərin öldüyü bildirilir.

Rusiyanın vilayətə rəhbər təyin etdiyi **Leonid Paseçnik** noyabrın 20-nə keçən gecə Ukraynanın hücumu nəticəsində üç nəfərin öldüyünü açıqlayıb. Onun sözlərinə görə, Ukrayna hərbçiləri Yubileynoye qəsəbəsinə kütləvi zərbələr endiriblər. Mobil atəş qrupları hava hədəflərinin əksəriyyətini vurub.

Paseçnik hücum zamanı çoxmənzilli yaşayış binalarına ziyan dəydiyini deyib. Binalardan birində girişlər arasındakı beton örtüklər çöküb. O, altı nəfərin yaralandığını, dağıntılar altında hələ də insanların ola biləcəyini əlavə edib.

Ukraynanın hərbi əməliyyatlarını izləyən "Exilenova+" və "Supernova+" Telegram kanalları isə Ukrayna Müdafiə Qüvvələrinin Luqansk vilayətindəki sursat anbarına zərbə endirdiyini yazıblar.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur